## Mingəçevir Dövlət Universitetinin Gənc Alimlər Şurası haqqında

## ƏSASNAMƏSİ

Mingəçevir Dövlət Universitetinin Elmi Şurasının 11 iyul 2024-cü il tarixli iclasının 0103/212/1 nömrəli qərarı əsasında Gənc Alimlər Şurası yaradılmışdır.

Şuranın fəaliyyətinin əsas məqsədi MDU-da fəaliyyət göstərən gənclərin elmi potensialının artırılması, onların müxtəlif təşəbbüslərinin stimullaşdırılması, elmə axının təmin olunması, asudə vaxtlarının səmərəli təşkil edilməsi, əldə etdikləri elmi nəticələrin kütləvi informasiya vasitələrində işıqlandırılması, habelə gənc tədqiqatçılara metodiki və informasiya dəstəyinin göstərilməsindən ibarətdir.

Şura öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərar və sərəncamlarını, Mingəçevir Dövlət Universitetinin Nizamnaməsini və Gənc Alimlər Şurasının əsasnaməsini rəhbər tutur.

### 1.Şuranın əsas fəaliyyət istiqamətləri

1.1. MDU-da fəaliyyət göstərən gənclərin elmi potensialının artırılması, elmin müxtəlif istiqamətlərində elmi-tədqiqat fəaliyyətinin inkişaf etdirilməsi və innovativ ideyaların təşviqi;

1.2. Gənclərin elmə cəlb olunmasının gücləndirilməsi və elmləşmə prosesinə dəstək verilməsi;

1.3. Elmi və yaradıcılıq sahəsində islahatların həyata keçirilməsi istiqamətində təhlillərin aparılması və müvafiq tövsiyələrin hazırlanması.

### 2.Şuranın vəzifələri

2.1. Gənc alimlər arasında elmi müzakirələrin təşkili;

2.2. Tədqiqat layihələrinin təşviqi və maliyyələşdirilməsi ilə bağlı təkliflərin hazırlanması;

2.3. Universitetin elmi fəaliyyətinin inkişafına dəstək göstərilməsi və gənc alimlərin elmi tədbirlərdə iştirakının təmin edilməsi;

2.4. Elmi nəticələrin geniş auditoriyaya çatdırılması məqsədilə seminarlar, konfranslar və simpoziumların təşkili;

2.5. Gənc alimlərin təcrübə mübadiləsi üçün xarici universitetlərlə əməkdaşlığın inkişafına dəstək verilməsi;

2.6. Şuranın fəaliyyəti barədə hər il universitet rəhbərliyinə hesabatın təqdim edilməsi;

2.7. Təşkil edilən elmi tədbirlər və həyata keçirilən layihələr barədə mütəmadi məlumatların verilməsi.

**3.Şuranın idarə olunması**

Şuranın fəaliyyətinə rəhbərlik Mingəçevir Dövlət Universitetinin rektorunun əmri ilə təyin olunmuş sədr tərəfindən həyata keçirilir.

| | | |
|---|---|---|
| **Sədr:** | i.f.d. Saqib Məmmədov | Menecment kafedrası |
| **Elmi katib:** | Nailə Allahyarova | Riyaziyyat kafedrası |
| **Üzvlər:** | f.f.d. Ayna Babazadə | Humanitar fənlər kafedrası |
| | Nərgiz Kərimova | Xarici dillər kafedrası |
| | Aytən Nadirova | İqtisadiyyat kafedrası |
| | Əli Nadirov | İqtisadiyyat kafedrası |
| | Fəhmi Babayev | İqtisadiyyat kafedrası |
| | Müşfiq Hüseynov | Menecment kafedrası |
| | Ramil Həsənov | Menecment kafedrası |
| | Babək Hüsüyev | Menecment kafedrası |
| | Cəfər Cəfərli | Menecment kafedrası |